UOT 37.

**_Murad Pərviz oğlu Həmidov_**
*Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasının*
*Adyunktura və elm şöbəsinin redaksiya bölməsinin redaktoru,*
*fəlsəfə doktoru proqramı üzrə dissertant*

# ZABİT ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI PEDAQOJİ PROBLEM KİMİ

**_Мурад Парвиз оглу Гамидов_**
*редактор отдела адъюнктуры и науки Военной Академии Вооруженных Сил Азербайджана,*
*диссертант по программе доктора философии*

# ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ ОФИЦЕРА КАК ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА

**_Murad Parviz Hamidov_**
*editor of the department of adjuncture and science at the Military Academy of the Armed Forces of Azerbaijan*
*doctoral student in the programm of a Ph.D*

# FORMATİON OF THE OFFİCER'S PERSONALİTY AS A PEDAGOGİCAL PROBLEM

.

**Xülasə:** Şəxsiyyət problemi həmişə olduğu kimi hazırda da aktualdır. Şəxsiyyət problemi əsrlər boyu filosofları, psixoloq və pedaqoqları, mütəfəkkirləri düşündürmüş, onların tədqiqat mövzusuna çevrilmişdir. Həmin tədqiqatlarda şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi önəmli məsələlər diqqət mərkəzində dayanmış, şəxsiyyət anlayışının mahiyyəti ilə bağlı fərqli fikirlər söylənmişdir.

Məqalədə zabit şəxsiyyətinin formalaşdırılması pedaqoji problem kimi nəzərdən keçirilir.

***Açar sözlər:*** *zabit, zabit şəxsiyyəti, şəxsiyyətinin formalaşdırılması, zabit şəxsiyyətinin formalaşdırılması, pedaqoji problem*

**Резюме:** Проблема личности как и во все времена актуальна и сейчас. Проблема личности на протяжении веков находилась в центре внимания философов, психологов, педагогов, мыслителей и являлась предметом их исследования. В центре внимания данных исследований находились такие вопросы как личность, ее активность, формирование и структура. Были высказаны различные мнения о понятии сущности личности.

В статье как педагогическая проблема рассматривается формирование личности офицера.

***Ключевые слова****: офицер, личность офицера, формирование личности, формирование личности офицера, педагогическая проблема*

**Summary:** The problem of personality, as in all times, is still relevant. The problem of personality over the centuries has been at the center of attention of philosophers, psychologists, educators, thinkers and has been the subject of their research. The focus of these studies were such issues as the personality, its activity, formation and structure. Different opinions were expressed on the concept of the essence of personality.

The article considers the formation of the officer's personality as a pedagogical problem.

***Keywords:*** *officer, officer's personality, personality formation, officer personality formation, pedagogical problem*

Ölkəmizdə təhsilin əsas məqsədi şəxsiyyət yetişdirməkdən ibarətdir. Bu barədə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda bildirilir: "... təhsilin əsas məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə, demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir" (1).

Şəxsiyyət problemi həmişə olduğu kimi hazırda da aktualdır. Şəxsiyyət problemi əsrlər boyu filosofları, psixoloq və pedaqoqları, mütəfəkkirləri düşündürmüş, onların tədqiqat mövzusuna çevrilmişdir. Həmin tədqiqatlarda şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi önəmli məsələlər diqqət mərkəzində dayanmış, şəxsiyyət anlayışının mahiyyəti ilə bağlı fərqli fikirlər söylənmişdir. Başqa sözlə, hazırda şəxsiyyət barədə bütün tədqiqatçılar tərəfindən qəbul edilən vahid tərif yoxdur.

"Şəxsiyyət" anlayışına verilən aşağıdakı tərif yığcamlığı və konkretliyi ilə seçilir: "Şəxsiyyət - bir şəxsə xas olub onun fərdiyyətini müəyyən edən xüsusiyyətlərin məcmusu" və yaxud "Öz xarakteri, əxlaqı, cəmiyyətdə mövqeyi və s. baxımından insan, şəxs, sima" (2).

Şəxsiyyət dedikdə, ilk növbədə, fərdi bu və ya başqa cəmiyyətin üzvü kimi səciyyələndirən sosial keyfiyyətlərin sistemi başa düşülür. Şəxsiyyət münasibət subyekti, şüurlu fəaliyyət subyekti olur. Başqa sözlə, şəxsiyyət yalnız şüur və mənlik şüurunun meydana gəlməsi ilə birlikdə yaranır.

Şəxsiyyət – yüksək düşüncəsi ilə fərqlənən, öz hərəkət və əməlləri, nümunəvi davranış və rəftarı, ünsiyyət tərzi üçün məsuliyyət hissinə, şəxsi şərəf və ləyaqət hisslərinə və digər müsbət mənəvi keyfiyyətlərə yiyələnmiş kamil insandır, müstəqil, fəal və sosial şəxsdir.

K.D. Uşinskinin qənaətincə, "Yalnız şəxsiyyət şəxsiyyəti müəyyən edə bilər və onu inkişaf etdirə bilər. Yalnız xarakterlə xarakter yaratmaq olar".

Həmin sözlərdə dərin həqiqət vardır. Deyiləndən göründüyü kimi, təhsilalanı, o cümlədən kursantı, gələcək zabiti yalnız usta müəllim yetişdirib, şəxsiyyət səviyyəsinə çatdıra bilər.

K.D. Uşinski bu fikirdədir ki, insanı bütün münasibətlərdə tərbiyə etmək, şəxsiyyət kimi yetişdirməkdən ötrü onu bütün münasibətlərdə öyrənmək məqsədəuyğundur. Təhsilalana bələd olmaq – onun istedad və qabiliyyətlərinə, bacarıqlarına bələd olmaq, maraqlarını, təmayüllərini, arzu və istəklərini, imkanlarını bilmək, təfəkkürünün, təxəyyülünün inkişaf səviyyəsini müəyyən etmək deməkdir (3).

"Şəxsiyyət" sözü Azərbaycan, rus və ingilis dillərində təxminən eyni etimologiyanı özündə ehtiva edir.

Belə ki, Azərbaycan dilində "şəxsiyyət" sözü öz mənşəyini ərəb dilindəki "şəxs", "sima" sözündən almış və konkret bir şəxsi nəzərdə tutur. "Şəxsiyyət" sözü rus dilində *личность* sözü «*лицо», «личина»* (*üz, sifət*) sözlərilə əlaqədardır. "Şəxsiyyət" sözünün ingilis dilində qarşılığı "*personality*" sözüdür. Bu söz əsasını latın sözləri olan – «*per*» və «*sona*» sözlərindən götürüb, "vasitəsilə danışır" mənasını verir.

Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri özündə ehtiva edir. O, fərdin özünəməxsus simasının yaranması ilə müşayiət olunan bir prosesidir. Şəxsiyyət gerçəkliyi dərk edərək, onu dəyişdirir. O, buna qadirdir. Şəxsiyyətin ən səciyyəvi xüsusiyyətlərindən biri onun fərdiyyətidir. Hər bir insan özünün şəxsiyyəti baxımından təkrarolunmazdır.

Psixologiya üzrə ədəbiyyatlarda göstərildiyi kimi, "məhz bu ierarxik münasibətlər sistemi inteqrativ bir keyfiyyət kimi şəxsiyyəti səciyyələndirir" (prof. B.H. Əliyev), "Şəxsiyyət keçmişin şüursuz meylləri və gələcəyə şüurlu yönəlmənin qarşılaşdırılmasının imkan və təzahür vasitəsidir" (prof. S.İ. Seyidov).

"Şəxsiyyət" mürəkkəb anlayış olub onun adekvat olaraq dərk edilməsinin çətinliyi bəzi cəhətlərlə əlaqədardır. Psixoloqlar həmin cəhətlərin aşağıdakılardan ibarət olduğunu göstərirlər:

"1. İnsan şəxsiyyəti maddi və toxunula bilən, hiss edilən deyildir. O, bir sıra amillərin, şəraitin, imkanların və determinantların təsiri altında formalaşan psixoloji törəmədir.

2. İnsan şəxsiyyəti bir sıra amillərin təsirinə məruz qalsa da yalnız onlardan asılı bir törəmə kimi şərh oluna bilməz, çünki o formalaşdığı həmin əsası dialektik olaraq rədd edir.

3. İnsan davranışının determinasiyasında şəxsiyyətin mühüm əhəmiyyət kəsb etməsi barədə çoxlu nəzəriyyə və konsepsiya mövcuddur ki, bunların bir çoxunun «şəxsiyyət» anlayışını şərh etməsi ziddiyyətlidir.

4. Nəhayət, şəxsiyyəti anlamaq insan fenomenini anlamaqla birbaşa əlaqədardır. Şəxsiyyət yalnız o zaman insanın əsası, özəyi kimi, onun başlıca parametri, onun eyniləşdirmə vasitəsi kimi şərh oluna bilər ki, antropologiya və insan haqqında biliklər insanın öz təbiətini anlamaq səviyyəsinə yüksəlmiş olsun" (4).

Şəxsiyyət və onun psixologiyasının tarixi qədimdir. Şəxsiyyət psixologiyası ilə bağlı nə-

zəri tədqiqatlar mütəfəkkirlərin əsərlərindən qidalanmışdır. Bütün bunlarla yanaşı şəxsiyyət psixologiyası eksperimental elm olaraq iyirminci yüzilliyin birinci onilliyində yaranmışdır.

Bildiyimiz kimi, şəxsiyyətin eksperimental tədqiqinin əsasını A.F. Lazurski, Q. Olport və R. Kettel qoymuşlar.

Gələcək zabitin şəxsiyyətini formalaşdırmaq vəzifəsini qarşısına məqsəd qoyan ali hərbi təhsil müəssisəsinin müəlliminin özü bir şəxsiyyət kimi nümunə göstərməlidir. O, nəzəri və metodik hazırlığa, pedaqoji ustalığa yiyələnməklə yanaşı eyni zamanda nümunəvi davranışa, yüksək etika və estetikaya, aydın və əlaqəli nitqə, geniş dünyagörüşünə, səlist mühakimə yürütmək qabiliyyətinə malik olmalıdır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli, 600 nömrəli əmri ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları"nda deyilir: "Müəllim təhsilalanlarla, rəhbərlik və həmkarları ilə davranışında nəzakətli, xeyirxah, diqqətli və təmkinli olmalıdır. Müəllim peşə fəaliyyəti ilə əlaqədar iradları, tənqidi fikirləri qəbul etməli, qiymətləndirməli və onlardan düzgün nəticə çıxarmalıdır. Müəllim səmimi, çalışqan, intizamlı, təşəbbüskar olmalı, xarici görkəminə, geyiminə xüsusi fikir verməli, hər zaman səliqəli olmalıdır" (5).

Bütün deyilənlərlə bərabər, müəllim bacarıqlı psixoloq olmalıdır. O, kursantların hər birinə fərdi yanaşmağı, onun hörmətini və etimadını, inamını və sevgisini qazanmağı, ona bələd olmağı, yaxşı keyfiyyətlərini müəyyən etməyi bacarmalıdır.

Pis təhsilalan yoxdur, pis yanaşma tərzi mövcuddur. Kursantlara, gələcək zabitlərə təlim prosesində, auditoriyadankənar tədbirlər zamanı qarşılıqlı münasibətlərdə pedaqoji prosesin obyekti ilə yanaşı, həm də subyekti kimi yanaşmalıdır. Başa düşməlidir ki, gələcək zabit də müəllim kimi pedaqoji prosesin bərabərhüquqlu üzvüdür.

İnsan öz təbiəti baxımından bioloji olsa da, mahiyyət baxımından sosialdır. İnsanlar bir-birindən onunla fərqlənir ki, onlar öz subyektiv aləmlərində gedən prosesləri anlayırlar.

Fərd şəxsiyyətə çevrildikdə eyni zamanda fərdiyyət xüsusiyyətlərinə malik olur. Fərdiyyət və şəxsiyyət anlayışları məzmunca nisbətən yaxındır. Fərdiyyət anlayışı insanın təkrarolunmaz xüsusiyyətlərini, orijinallığını özündə birləşdirirsə, şəxsiyyət anlayışı daha çox insanın şəxsi simasını, onun müstəqilliyini, əqidə möhkəmliyini, prinsipiallığını, çətin vəziyyətlərdə qərar qəbul edə bilmək (ağlın çevikliyi) bacarığını ifadə edir.

Fərdiyyət anlayışına daxildir: xarakter, temperament, qabiliyyətlər, psixi proseslərin cərəyanetmə xüsusiyyətləri, üstünlük təşkil edən hisslərin və fəaliyyət motivlərinin məcmusu və s.

Şəxsiyyətin formalaşması dedikdə, ilk növbədə, təbii, bioloji və anadangəlmə amillərlə xarici, yəni tərbiyənin, təlimin və sosial mühitin qarşılıqlı təsiri nəticəsində baş verən inkişaf prosesi anlaşılır. Şəxsiyyətin təşəkkül tapıb formalaşmasında bioloji və sosial amillər problemi hazırda da mübahisə obyektidir. Bütün bunlarla yanaşı, insan bioloji, təbii quruluşa malik olsa da, o, tarixi inkişafın məhsulu hesab edilir. Onun bütün psixi prosesləri ictimai amillərin təsiri altındadır.

Professorlar R.İ. Əliyev və G.B. Əliyevanın şəxsiyyət nəzəriyyəsinə dair faydalı fikirləri vardır. Onlar "Şəxsiyyət psixologiyası" kitabında yazırlar: "Şəxsiyyət nəzəriyyəsi yaradıcıları arasındakı fikir ayrılığı tarixi şəraitdən də yaranmışdır. Psixopatalogiyaya əsaslanan nəzəriyyələr empirik tədqiqatlara etinasızlıqdan irəli gəlir. idrak fenomeninə əsaslanan nəzəriyyələr də digərlərinə əhəmiyyət verməmişdir. Fikrimizcə, hər bir nəzəriyyəçi və ya məktəb bütövün, tamın bir hissəsi haqqında dərin təsəvvürə malikdir və onun bir hissəsi olmasına inanmaq istəmir. Eləcə də digərləri inandırmaq istəyirlər ki, bu ya tamdır və ya tamın əsas hissəsidir" (6, s. 98-99).

Şəxsiyyətin təşəkkülündən ötrü motivasiya vacibdir. Motivlərin düzgün seçilməsi insanı (bizim tədqiqatda gələcək zabitləri) məqsədəuyğun fəaliyyətə istiqamətləndirir. Başlıcası budur ki, həmin motivlər onun maraqlarını ifadə etməlidir. Maraqlar şəxsiyyətin (kursantların) daxili tələbatlarının təzahürləri kimi özünü göstərir. Maraqların nəzərə alınması şəxsiyyətin bilik, bacarıq və qabiliyyətlərindəki çatışmazlıqların həllinə və insanın bir tam və bütöv kimi formalaşmasına yardımçı olur.

Professorlar Ə.S. Bayramov və Ə.Ə. Əlizadənin qənaətincə, "Hər bir insan, bir tərəfdən, bioloji varlıqdır, digər tərəfdən, sosial varlıqdır. Onun bioloji varlıq kimi psixoloji xüsusiyyətlərini fərd termini, sosial varlıq kimi psixoloji xü-

susiyyətlərini şəxsiyyət termini ilə ifadə edirlər. İnsanın həyat fəaliyyətində bu iki cəhət bir-biri-lə elə uzlaşır ki, biz çox vaxt nəinki onları aydın şəkildə fərqləndirmir, hətta bu haqda fikirləşmi-rik. Halbuki insanın fərd və şəxsiyyət kimi xa-rakteristikaları vəhdət təşkil etsə də, onları eyni-ləşdirmək olmaz" (7, s. 105).

Şəxsiyyət probleminə prof. N.M. Kazımov da münasibət bildirmişdir. Professora görə, şəxsiyyət anlayışını şəxs və ya fərd anlayışı ilə eyni götürülməməlidir. N.M. Kazımov yazır: "Şəxs bioloji və sosioloji xüsusiyyətlərin məcmusudur. Şəxsiyyət isə adamın malik olduğu yalnız sosioloji keyfiyyətlərin birliyidir. Bu keyfiyyətlər təbii və ictimai amillərin, habelə tərbiyəvi təsirlərin sayəsində təşəkkül tapır və inkişaf edir" (8, s. 52).

Hər hansı cəmiyyətdə özünü büruzə verən dəyişikliklər cəmiyyət üzvlərinin psixikasına, şəxsiyyətin formalaşmasına, şəxsiyyətlərarası münasibətlərə, həmçinin tərbiyə sisteminə təsir edir. bu da həqiqətdir ki, bu və ya digər subyektin özündə dəyişiklik yaranır. Başqa sözlə, motivasiya tələbat, emosional-iradi sahəsi dəyişikliklərə məruz qalır. İstər subyektdəki dəyişiklər, eyni zamanda cəmiyyətdə baş verən proseslər və onların qarşılıqlı təsiri çox mürəkkəb psixoloji sistemi təşkil edir. Biz görkəmli Azərbaycan psixoloqu Ə.S. Bayramovun belə bir fikri ilə tamamilə razılaşırıq ki, "Şəxsiyyətin təşəkkül istiqaməti və səviyyəsi yalnız xarici təsirlərin xarakterindən deyil, həm də insanın özünü təkmilləşdirmək cəhdindən asılıdır".

Deyilənləri gələcək zabit şəxsiyyətinin formalaşdırılması problemi üçün də məqbul saymaq mümkündür.

**Problemin aktuallığı.** Yeni pedaqoji təfəkkür şəraitində zabit şəxsiyyətinin formalaşdırılması öz aktuallığı ilə seçilir.

**Problemin yeniliyi.** Zabit şəxsiyyətinin formalaşdırılması pedaqoji problem kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti.** Zabit şəxsiyyətinin formalaşdırılması sahəsində ali hərbi təhsil müəssisələrinin pedaqoji kollektivlərinə öz köməyini göstərəcəkdir.

## Ədəbiyyat:


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
2. http://nedir.az/səxsiyyət-nedir-səxsiyyət-haqqinda
3. K.D. Uşinski. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
4. https://kayzen.az/blog/psixologiya/18353/şəxsiyyət-haqqında-anlayış.html
5. http://edu.gov.az/upload/file/emre-elave/2014/600/muellimlerin-etik-davranis-qaydalari.pdf
6. R.İ. Əliyev və G.B. Əliyeva. Şəxsiyyət psixologiyası. Bakı: ADPU-nun nəşriyyatı, 2010.
7. Ə.S. Bayramov və Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2006.
8. N.M. Kazımov. Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı: Maarif, 1983.


**E-mail**: murad_hamidov@inbox.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok., dos.* **T.S. Paşayev**
**Redaksiyaya daxil olub:** 10.11.2018